# Qurucu və xilaskar

## Tam suverenliyə aparan yolun təməli 31 il öncə Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub



Ümummilli Lider Heydər Əliyev tarixi proseslərə təsir göstərməyə qadir şəxsiyyət kimi Azərbaycan xalqı və dövlətçiliyi üçün çox böyük və əvəzedilməz işlər görüb. Ulu Öndər Azərbaycan xalqının və dövlətinin taleyüklü problemlərini həll edən tarixi şəxsiyyət olmaqla yanaşı, həm də tarixi yaradan şəxsiyyətdir.

1993-cü il oktyabrın 3-də xalqın mütləq əksəriyyətinin səsini qazanaraq Prezident seçilən Ulu Öndər ölkəmizi böyük bəlalardan, faciələrdən hifz edərək, qlobal enerji-kommunikasiya layihələrini reallaşdırmaqla Vətənə sədaqətlə xidmətin əyani nümunəsini yaratdı. O zaman Ümummilli Lider andiçmə mərasimindəki nitqində bildirmişdi: "Bu gün mənim üçün tarixi, əlamətdar bir gündür. Mənə göstərilən bu böyük etimada görə Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına hörmətimi, məhəbbətimi bildirir və əmin etmək istəyirəm ki, həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm".

Ulu Öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan zaman Azərbaycanın bu çətinlikləri arxada qoyacağını, hər kəsin belə qüdrətli, güclü dövlətin vətəndaşı olması ilə fəxr edəcəyini bildirmişdi. Ümummilli Lider 10 oktyabr 1993-cü ildə keçirilən andiçmə mərasimində səsləndirdiyi bu vədini bir daha yada salaraq belə bir yüksək məsuliyyətli vəzifəni üzərinə götürərkən birinci növbədə Azərbaycan xalqının zəkasına, müdrikliyinə, qüdrətinə güvəndiyini, arxalandığını qeyd etdi. Ulu Öndər Azərbaycan xalqının ona bəslədiyi ümidlərin onu bu vəzifəni üzərinə götürməyə məcbur etdiyini və bu ümidləri doğrultmaq üçün əlindən gələni əsirgəməyəcəyini vurğulamışdı.

1993-cü ildən başlayaraq Azərbaycan Respublikasının demokratik, hüquqi və dünyəvi dövlət kimi möhkəm təməllər üzərində inkişaf etməsi, sosial-iqtisadi həyatın bütün sahələrini əhatə edən köklü dəyişikliklər və dərin islahatların həyata keçirilməsi məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər Azərbaycan Respublikasına rəhbərlik etdiyi 1993-2003-cü illər ölkə üçün həlledici dövr oldu. Məhz həmin illər milli dövlətçiliyin möhkəm təməli qoyuldu, Azərbaycan Respublikasının istər daxili, istərsə də xarici siyasətlə bağlı strateji xətti müəyyən edildi. Ulu Öndərin rəhbərliyi ilə qısa müddətdə ölkədə baş alıb gedən hərc-mərclik və anarxiya aradan qaldırıldı, qanunun aliliyi təmin olundu, hüquqi-demokratik prinsiplərə əsaslanan Konstitusiyamız qəbul edildi, müasir idarəçilik sistemi yaradıldı, vətəndaş həmrəyliyi bərpa olundu, iqtisadi tərəqqini şərtləndirən qlobal layihələr reallaşdırıldı.

Heydər Əliyev Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, xalq məhəbbətini qazanan şəxsiyyət kimi qalıb və qalacaq. Dahi liderin bu müdrik kəlamları Azərbaycanın bu gününə və sabahına nur saçan qətiyyətli fikirlərdir: "Nə qədər ki Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam".

Ulu Öndər qısa müddətdə ölkəyə investisiya axınını stimullaşdıran müasir innovativ inkişaf modelinin gerçəkləşdirilməsinə nail oldu. Bu model özəl mülkiyyətçiliyə, sahibkarlığa, sərbəst rəqabətə yol açan, liberallığı özündə ehtiva edən və sosialyönümlü mahiyyət daşıyan iqtisadiyyat modeli idi. "Azərbaycan dövlətinin strateji yolu yalnız demokratiya, sərbəst iqtisadiyyat prinsiplərinin bərqərar olması, bazar iqtisadiyyatı və sahibkarlığın inkişafıdır", - deyən Heydər Əliyev demokratik düşüncə və həyat tərzinin dünyada diktə etdiyi bu meyarlara hər zaman sadiqlik göstərib, milli inkişaf naminə bu yolun alternativsizliyi fikrinin ictimai rəyə aşılanmasına nail olub. 1993-cü ildən başlayaraq bu günə qədər Azərbaycan, sözün əsl mənasında, müstəqil həyat yaşayır.

Ulu Öndərin prezident olduğu illərdə dövlətçiliyin əsasları qoyuldu, müstəqil dövlətin Konstitusiyası qəbul edildi, milli ideologiyamız qəbul olundu, siyasi islahatlar aparılmağa başlandı, demokratik inkişafla bağlı önəmli qərarlar, qanunlar qəbul edildi. İqtisadi sahədə liberallaşma siyasətinin aparılmasına başlanıldı və bazar iqtisadiyyatına keçid məhz Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə baş verdi.

Ulu Öndərin nəsillərə nümunə olan həyat yolu xalqa təmənnasız xidmətdə keçib. O, nəinki müstəqil Azərbaycan dövlətçiliyinin əbədiliyini təmin edib, həm də milli dövlətçiliyin əsasını qoyub, yeni idarəçilik məktəbi formalaşdırıb. Dahi şəxsiyyətin qurub-yaratdığı, şah əsəri olan müstəqil Azərbaycanın taleyini bu məktəbin layiqli davamçısı olan cənab İlham Əliyevə əmanət edib. Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi və qüdrətli sərkərdəliyi ilə Azərbaycanın ərazi bütövlüyü təmin olunub. Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusu Qarabağın düşmən tapdağından azad edilməsi, ərazi bütövlüyümüzün bərpası idi.

Ümummilli Liderin arzuladığı o an, nəhayət ki, 2020-ci ilin noyabrında yetişdi. Onun qoyduğu möhkəm təməl əsasında Azərbaycan ildən-ilə gücləndi, beynəlxalq aləmdə mövqeyini möhkəmləndirdi, qüdrətli ordu yaratdı. Məhz iqtisadi güc və Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti sayəsində rəşadətli ordumuz düşməni torpaqlarımızdan qovub çıxardı, bayrağımız yenidən vətən torpaqlarında, Qarabağın döyünən ürəyi olan Şuşada qürurla dalğalanmağa başladı.

Xalqımız bu möhtəşəm nailiyyəti həm də Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasətinin məntiqi nəticəsi kimi dəyərləndirir. Xalq olaraq tam əminliklə deyə bilərik ki, bu gün biz Ulu Öndər Heydər Əliyevin uzaqgörənliklə söylədiyi o mübarək günləri yaşayırıq. Azərbaycanın şanlı bayrağı Qarabağın bütün bölgələrində dalğalanır. Öz gücü hesabına 44 günlük Vətən müharibəsi, 23 saat 43 dəqiqəlik antiterror tədbirləri ilə ərazi bütövlüyü və suverenliyini bərpa edən Azərbaycan dövlətinin qüdrətini və ədaləti bərpa etmək qabiliyyətini dünya gördü.

*Kamran BAYRAMOV,*
*Milli Məclisin deputatı*

Azərbaycan.- 2024.- 3 oktyabr (№ 216).- S.6.